Ədəbiyyat qəzeti

32 30 oktyabr 2021-ci il

# İsmayıl ZƏNGİLANLI-80

Hörmətli İsmayıl müəllim!

Sizi 80 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ötən əsrin əllinci illərində bədii yaradıcılığa başlamısınız. İlk qələm təcrübələrinizi üzə çıxarmamısınız. Məlum hadisələrə qədər Zəngilan rayonunda təsərrüfatla məşğul olmuş, eyni zamanda şeirlər yazmısınız. Qarabağ müharibəsi, köçkünlük həyatı sizə yeni mövzular vermiş, bir şair-vətəndaş kimi xalqımızın başına gətirilən faciələrə biganə qalmamış, gördüklərinizi, yaşadıqlarınızı qələmə almısınız. 2003-cü ildə "Ömür, hara tələsirsən?" adlı ilk kitabınız işıq üzü görmüşdür. 2006-cı ildə çapdan çıxan "Ədalət zəfər çalsın" şeir toplunuz gec-tez torpaqlarımızı işğalçılardan azad edəcəyimizə inamın ifadəsi idi. "Vətənim", "Xocalı qan içində","Vətənimdə Vətənsizəm", "Canım, gözüm Zəngilan", "Qarabağa gedən yol", "Mübariz olaq", "Vətənsiz yaşamaq olmur" və s. kitablarınıza daxil edilmiş şeirləriniz də vətənpərvərlik ruhuna köklənmişdir. Böyük qələbəmiz bütün xalqımız kimi sizi də riqqətə gətirmiş, nəhayət, zəfər şeirləri yazmaq sizə də qismət olmuşdur. Bu il çapdan çıxmış "Yolumuz zəfər yoludu" sizin qələbə müjdəli ilk kitabınızdır. Ümid edirik ki, bundan sonra siz Qarabağda gedən əzəmətli quruculuqdan ilhamlanaraq yeni-yeni şeirlərə imza atacaqsınız.

Hörmətli İsmayıl müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**